

# Kazım Qarabəkir Paşa məscidi

**Həmin məscid binası XVI əsr türk memarı S.Osmanlının tikdirdiyi üslubda Türkiyənin Dəyanət İşləri Başkanlığının sifarişi ilə inşa edilmişdir. 1995-ci ilin 20 sentyabr tarixində tikintisinə başlanan binanın xərcləri Belçikalı türklərin vəsaiti ilə ödənilmişdir.**

Məscidin memarı Çingiz Seçkin, layihə mühəndisi isə Həmid Turca olmuşlar. Qoşaminarəli məscid binasının giriş qapısı şimal tərəfdəndir. Bina üçmərtəbəli qurularaq, özülü, divarları, günbəzlə minarələri dəmir betondan tökülmüşdür. Divarlara xaricdən Qarabağ mişar daşından üzlük pilitələri hörülmüşdür.

Məscid binasının sahəsi 550, həyəti ilə birlikdə 13 min kvadrat metrdir. Minarələrin hündürlüyü 38, əsas günbəz 19, yanlardakı günbəzlər isə 4 metr ucalığındadır.

Binanın birinci mərtəbəsində böyük dəhlizdə yardımçı otaqlar, ikinci mərtəbəsində kişilərin ibadət salonu, cənub divarlarda mehrab vardır.

Mehrabın ətrafında mərmər üzərində ərəbcə Quranın "Bəqərə" surəsindən "Ayətəl-kürsü" ayələri həkk edilmişdir.

Məscidin üçüncü mərtəbəsinə minarələrdən pillələrlə yol gedərək yan divarlardakı eyvanı xatırladan güşə qadınların ibadəti üçündür.

Məscidin pəncərələri rəngli şüşələrlə vitraj işlənmiş, daxili divarlar naxışlarla bəzədilərək, minarə ilə günbəzlərin üst örtüklərinə qurğuşun təbəqəsi çəkilmişdir. Məsciddə eyni vaxtda 1000 nəfərin ibadəti nəzərdə tutulmuşdur. Salonun içərisində günbəzdən çilçıraq asılmış, əzan vermək üçün müasir avadanlıqlar quraşdırılmışdır. Məscidin həyətində layihəyə görə 300 nəfərlik mədrəsə ilə 200 nəfərlik ümumi yataqxana tikilməsi nəzərdə tutulsa da inşaat işləri dayandırılmışdır.

Məscidin giriş qapısı üstündə divarda ərəbcə və türkcə aşağıdakı sözlər yazılmışdır:

"Kazım Karabekir Paşa Camisi" Naxıçvan halkına kardeşlik hediyyesi olarak Belçikada yaşayan türklerin katkılarıyla Türkiyə diyanet vakfı tarafından Çintaş A.S-yaptırılmışdır. 1997"

Bundan başqa məscidin sağ divarında türk və azəri ləhcəsi ilə aşağıdakı sözlər də yazılmışdır:

"Kazım Karabəkir (1882-1948). Mustafa Kamal Atatürkün yaxın silahdaşı olan böyük Türk sərkərdəsi və dövlət xadimi Birinci Dünya müharibəsi və Milli Mücadilə dövründə Şərqi Anadolunu rus və erməni işğalından xilas elədi və "Şərq Fatihi" adını qazandı (G.Məmmədova "Qarabəkir əfsanəsi" (sənədli roman) Bakı, "Zaman" nəşri. 2001. 488 səh.) .

Türk istiqlal hərbinin çox əhəmiyyətli dönüş nöqtəsi olan Ərzurum konqresinin keçirilməsində tarixi bir rol oynamışdır. Türkiyə Böyük Millət Məclisinə millət vəkili seçilərək Məclisə sədrlik etmişdir. Tarix və maarif sahələrində bir çox əsərlərin müəllifidir."

Naxçıvanda tikilən məscidə görkəmli türk sərkərdəsi və ictimai xadimi olmuş, 1918-21-ci illərdə Naxçıvan diyarını erməni quldurlarından təmizləyən Kazım Qarabəkir Paşanın adı verilmişdir.

1999-cu il 13 oktyabr tarixində məscid qapılarını həmişəlik olaraq naxçıvanlı dindarların üzünə açmışdır. Açılış mərasimində Azərbaycan Respublikasının prezidenti H.Ə.Əliyev, Türkiyə Cumhuriyyətinin Dəyanət işləri bakanı Mehmed Nuri Yılmaz və Kazım Qarabəkirin qızı Timsal Qarabəkir xanım da iştirak etmişlər.

Məscidin açılış mərasimi Türkiyənin "Samanyolu" (STV) teleşirkəti tərəfindən yayımlanmışdır.

Məscidin ilk axundu Abdulhəmid Övləc Əfəndi olmuşdur. Bayram və Cümə günlərində məscid daha izdihamlı olur.

• **F.BAĞIROV**